ADNSU

Azii 1920 || Azerbaijan State Oil & Industry University

**AZƏRBAYCAN DÖVLƏT NEFT VƏ SƏNAYE UNİVERSİTETİ**
**PUBLİK HÜQUQİ ŞƏXSİ**

“Təsdiq edirəm”

ADNSU PHŞ-nin rektoru v.m.i.e., dosent

________________Vazeh Əskərov

“_30_” ___10___ 2024-cü il

# AZƏRBAYCAN DÖVLƏT NEFT VƏ SƏNAYE UNİVERSİTETİ PUBLİK HÜQUQİ ŞƏXSİNİN TƏLƏBƏLƏRİNİN HÜQUQ VƏ VƏZİFƏLƏRİ HAQQINDA TƏLİMAT

ADNSU PHŞ-nin Elmi Şurasının
30 oktyabr 2024-cü il tarixli iclasında
(protokol № 2) qəbul olunmuşdur

**Bakı –2024**

## 1. Ümumi müddəalar

1.1. Azərbaycan Dövlət Neft və Sənaye Universiteti publik hüquqi şəxsinin (ADNSU) tələbələrinin hüquq və vəzifələri haqqında təlimat (Təlimat) tələbələrin hüquq və vəzifələrinin təsbit edilməsi, biliklərinin obyektivlik, bərabərlik, şəffaflıq və aşkarlıq prinsipləri əsasında yoxlanılmasını təmin edilməsi, imtahan zamanı tələbələr üçün müəyyən edilmiş vəzifələrin, qadağan olunmuş davranış və hərəkətlərin dairəsini, bu qaydalara riayət etməyən tələbələrə veriləcək cəzaların tətbiq edilməsi mexanizmini, imtahan nəzarətçilərinin hüquq və vəzifələrini və digər müvafiq normaları müəyyən edilməsi məqsədilə hazırlanmışdır.

1.2. Bu Qaydalar Azərbaycan Respublikası Prezidentinin 19 iyun 2009-cu il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu", ADNSU Elmi Şurasının tərəfindən təsdiq edilmiş "İmtahanların təşkili və keçirilməsi qaydaları" və "Daxili İntizam Qaydaları"nın müddəalarına müvafiq tərtib olunmuşdur.

## 2. Tələbələrin hüquq və vəzifələri

2.1. Tələbələrin hüquqları aşağıdakılardır:

2.1.1. qanunvericilikdə nəzərdə tutulmuş qaydada təhsil müəssisəsinə qəbul olunmaq;

2.1.2. təhsil müəssisəsini, təhsilin istiqamətini, ixtisası, təhsilalma formasını, tədris dilini və xarici dili sərbəst seçmək;

2.1.3. mənəvi-psixoloji cəhətdən sağlam pedaqoji mühitdə dövlət təhsil standartlarına uyğun keyfiyyətli təhsil almaq;

2.1.4. müvafiq qaydada təhsilin təmayülünü, təhsil proqramlarını və sinifdənkənar məşğuliyyəti, o cümlədən dərsdənkənar məşğələni (fakültativ kursları) seçmək;

2.1.5. ali təhsil müəssisəsinin tədris planlarına uyğun olaraq tədris fənlərini, semestrlər üzrə kreditlərin miqdarını, təhsilverənləri və tyutorları sərbəst seçmək;

2.1.6. təhsil müəssisəsinin mövcud infrastrukturundan (tədris-istehsalat, elmi tədqiqat, informasiya, mədəni-məişət, idman, sağlamlıq mərkəzlərindən, laboratoriyalardan kitabxanalardan və s.) istifadə etmək;

2.1.7. müəyyən edilmiş qaydada təhsil müəssisəsini, ixtisasını və təhsilalma formasını dəyişmək, təhsil müəssisəsindən xaric və ya təhsil müəssisəsinə bərpa olunmaq;

2.1.8. elmi tədqiqat fəaliyyəti ilə məşğul olmaq;

2.1.9. fasiləsiz təhsil almaq;

2.1.10. həyat və sağlamlığı üçün təhlükəsiz və zərərsiz təhsil şəraiti ilə təmin olunmaq;

2.1.11. şərəf və ləyaqəti aşağılayan, fiziki, mənəvi və psixoloji zorakılıq hallarından, insan hüquqlarına zidd hərəkətlərdən müdafiə olunmaq;

2.1.12. müəyyən edilmiş qaydada təhsil müəssisəsində təhsilini müvəqqəti dayandırmaq (akademik məzuniyyət götürmək);

2.1.13. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi qaydada biliyinin yenidən qiymətləndirilməsini tələb etmək;

2.1.14. dövlət orta ixtisas təhsili pilləsində, peşə təhsili və ali təhsilin hər bir səviyyəsində qanunvericiliyə uyğun olaraq yalnız bir dəfə pulsuz təhsil almaq;

2.1.15. dövlət və bələdiyyə ümumi təhsil və peşə təhsili müəssisələrində dərsliklərlə pulsuz təmin olunmaq;

2.1.16. təhsil prosesinin təşkilində və idarə olunmasında fəal iştirak etmək, öz fikir və mülahizələrini sərbəst ifadə etmək;

2.1.17. təhsil müəssisəsinin elmi, ictimai, sosial və mədəni həyatında, elmi cəmiyyətlərin, dərnəklərin, assosiasiyaların, birliklərin və digər təşkilatların yaradılmasında iştirak etmək, eləcə də ölkə və beynəlxalq səviyyəli belə təşkilatlara üzv olmaq;

2.1.18. təhsillə bağlı inkişafyönlü tədbirlərdə (olimpiada, bilik yarışları, fənn müsabiqələri, konfrans, seminar, proqram və layihələr) iştirak etmək;

2.1.19 "Psixoloji yardım haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada ödənişsiz psixoloji yardım almaq.

2.2. I kurs tədris qrupları üçün ən yüksək bal toplayan, digər kursların tədris qrupları üçün isə ən intizamlı və yaxşı oxuyan tələbələrdən dekanlığın təqdimatına əsasən, Tələbə Həmkarlar İttifaqı Komitəsinin rəyini nəzərə almaqla rektorun sərəncamı ilə qrup nümayəndəsi təyin edilir.

2.3.Qrup nümayəndəsi bilavasitə dekana tabedir və öz qrupunda onun sərəncamlarını və göstərişlərini həyata keçirir.

2.4. Qrup nümayəndəsinin funksiyasına aşağıdakılar daxildir:

2.4.1. tələbələrin dərslərə davamiyyətinin qeydiyyatını aparmaq;

2.4.2.fakültə dekanına hər gün tələbələrin dərsə gəlməsi, gecikməsi və onların səbəbləri haqqında məlumat vermək;

2.4.3.mühazirə, laboratoriya və məşğələ dərslərində tələbələrin tədris intizamının vəziyyətinə, həmçinin tədris avadanlığı və inventarın qorunmasına nəzarat etmək;

2.4.4.dərs cədvəlində edilən dəyişiklik haqqında vaxtında, tələbələrə məlumat vermək;

2.4.5.hər gün qrupda növbətçi təyin etmək;

2.4.6. mütəmadi olaraq tyutorla əlaqə saxlamaq.

2.5. Tələbələrin vəzifələri aşağıdakılardır:

2.5.1. dövlət təhsil standartlarına uyğun bilik, bacarıq və vərdişlərə yiyələnmək;

2.5.2. üzrsüz səbəblərdən dərsdənyayınma hallarına yol verməmək, verilən tapşırıqları vaxtında və keyfiyyətlə yerinə yetirmək;

2.5.3. sağlam həyat tərzi keçirmək;

2.5.4. pedaqoji işçilərin şərəf və ləyaqətinə hörmətlə yanaşmaq;

2.5.5. təhsil müəssisəsinin nizamnaməsinin tələblərinə riayət etmək;

2.5.6. dövlət, cəmiyyət, ailə və özü qarşısında məsuliyyətini dərk etmək;

2.5.7. təhsil sahəsində qanunvericiliyin tələblərinə, etik normalara və təlim-tərbiyə prosesi ilə bağlı qaydalara əməl etmək;

2.5.8. qanunvericilikdə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

2.6. Aşağıdakı tələblərin yerinə yetirilməsi tələbələrin ümdə borcudur:

2.6.1. Seçdiyi ixtisas üzrə müntəzəm olaraq biliklərə və praktik vərdişlərə dərindən yiyələnmək;

2.6.2. Tədris məşğələlərinə gəlmək, tədris planları və proqramlarında nəzərdə tutulan bütün tapşırıqları müəyyən edilmiş müddətdə yerinə yetirmək;

2.6.3. Universitetin mülkiyyətini (inventar, tədris vəsaiti, kitablar, avadanlıqlar və s.) qorumaq və ona qayğı ilə yanaşmaq, inzibati rəhbərliyin icazəsi olmadan laboratoriya, tədris və başqa binalardan müxtəlif əşya və avadanlığı aparmamaq;

2.6.4. Universitet daxilində, ictimai yerlərdə nizam-intizamlı və səliqəli olmaq, siqaret çəkməmək.

2.6.5. Universitetin və tələbə yataqxanasının daxili intizam qaydalarına riayət etmək;

2.6.6. Təhsilverən-təhsilalan münasibətlərini "Etik-Davranış Standartları"-nın tələblərinə uyğun saxlamaq;

2.6.7. Universitet daxilində tələbə vəsiqəsini üzərində gəzdirmək;

2.6.8. Tələbə biletini kənar şəxsə verməklə, sonuncunun Universitetə daxil olmasına şərait yaratmamaq;

2.6.9. Tələbə biletini və səliqəli saxlamaq;

2.6.10. Auditoriyalara daxil olarkən mobil telefonları söndürmək.

Dərs zamanı mobil telefonlardan istifadə edilməsi müəssisədaxili intizam qaydalarının kobud şəkildə pozulması hesab edilir.

2.7. Universitetdə əməkdaşların və tələbələrin geyimi sadə, müasir, milli-mənəvi dəyərlərimizə zərər vermədən rahat, dünyəvi təhsilin və dünya mədəniyyətinin ruhuna yad ünsürlərdən kənar, dini və ifratçılıq atributlarından uzaq olmalıdır. Aşağıda sadalanan paltarda işə, dərslərə və ya imtahanlara gələn əməkdaşların və tələbələrin Universitetə girişi qadağandır:

2.7.1 İdman paltarı;

2.7.2 Şort;

2.7.3 Dizdən yuxarı ətək;

2.7.4 Şəffaf paltar;

2.7.5 Qısa köynək və ya qısa kofta;

2.7.6 Çəkələk (oğlan tələbələr).

2.8. Tələbələrin Universitetin tədris binalarında və həyətlərində siqaret çəkməsi qadağandır.

2.9. Tələbə üzürlü olaraq dərsə gəlmədiyinin ertəsi günü, fakültə dekanına bu barədə və dərsə gəldiyi gün isə hər hansı dərsdə iştirak etməməsi səbəbi haqqında məlumat təqdim etməlidir, təhsilalan xəstəlikdən sonra dərsə gəldiyi gün, fakültə dekanına müvafiq müalicə müəssisəsinin müəyyən edilmiş formada arayışını təqdim etməlidir. Uzun sürən xəstəliklə əlaqədar dərsə gəlməyən tələbələrin gələcək təhsili haqqında qərarın çıxarılması üçün o, və ya valideyni fakültə dekanlığına yazılı məlumat verməli, sonra isə xəstəliyi barədə rəsmi sənəd təqdim etməlidir.

2.10. Tədrisdə qazanılan müvəffəqiyyətə, elmi-tədqiqat işindəki yüksək göstəricilərə və Universitetin ictimai həyatında fəal iştirakına görə tələbələr üçün aşağıdakı təltif və mükafatlar müəyyən edilir:

2.10.1. təşəkkür;

2.10.2. tərifnamə;

2.10.3. qiymətli hədiyyə;

2.10.4. pul mükafatı.

2.11.Tədris və daxili intizam qaydalarını pozduqlarına görə tələbələrə aşağıdakı cəzalardan biri verilə bilər:

2.11.1. töhmət;

2.11.2. sonuncu xəbərdarlıqla şiddətli töhmət;

2.11.3 Tələbələr sırasından xaric etmək.

2.12. Tənbeh tədbiri kimi Universitetdən xaric etmək aşağıdakı hallarda tətbiq edilə bilər:

2.12.1. Tələbə Universitetdə və ya yataqxana binasında daxili intizam qaydalarını kobud şəkildə pozduqda;

2.12.2 .Tələbə Universitetin və ya yataqxana binası ərazisində siqaret, tütün məhsulları, elektron siqaret çəkdikdə spirtli içki, narkotik maddələr qəbul edib sərxoş vəziyyətdə olduqda;

2.12.3. Tələbə Universitetdə və ya yataqxana binasında təhsilverənlərə, əməkdaşlara və ya tələbələrə qarşı fiziki zor tətbiq etdikdə.

## 3. ADNSU imtahan komissiyasının hüquqları

3.1. Tələbələrdən təhsil müddətində bu qaydalar üzrə öhdəliklərin yerinə yetirilməsini tələb etmək.

3.2. 6.3 və 7.8 bəndlərində göstərilənlərdən başqa digər əşyalarla imtahan otağına daxil olmuş tələbəni imtahandan kənarlaşdırmaq.

3.3. İmtahana 30 dəqiqədən artıq gecikmiş tələbəni imtahana buraxmamaq.

3.4. ADNSU-nun daxili intizam qaydalarında nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

## 4. ADNSU imtahan komissiyasının vəzifələri

4.1. Bu Qaydaların tələblərinə riayət edərək, tələbələrin biliklərinin yoxlanılmasına şərait yaratmaq və imtahanların yüksək səviyyədə təşkil edilib keçirilməsini təmin etmək.

4.2. Bu Qaydaların müddəaları ilə tələbələri əvvəlcədən tanış etmək və onları düzgün şəkildə təlimatlandırmaq.

4.3. Hər bir imtahan otağını müvafiq sayda təlimatlandırılmış imtahan nəzarətçiləri ilə təmin etmək.

## 5. İmtahan nəzarətçilərinin hüquq və vəzifələri

5.1. Tələbəni qeydiyyatdan keçirərək, imtahan otağında yerləşdirmək.

5.2. Tələbələrə bu Qaydalarda göstərilən hüquq və vəzifələrini izah etmək, onları qadağalarla bağlı təlimatlandırmaq.

5.3. İmtahanın başlanma və başa çatma vaxtını elan etmək və lövhədə yazmaq.

5.4. İmtahan zamanı otaqda nizam-intizamı təmin etmək.

5.5. İmtahan başa çatdıqdan sonra tələbələrin imtahan biletlərini və yazılı cavablarını toplamaq.

5.6. İmtahan otağına mobil telefonla (baş nəzarətçi istisna olmaqla) daxil olmamaq.

5.7. İmtahan zamanı yarana biləcək münaqişə və şikayətlərin yerində operativ həll edilməsi üçün imtahan komissiya üzvlərini imtahan otağına dəvət etmək.

5.8. Tələbələr Bu Qaydaların tələblərinə riayət etmədiyi halda, törədilmiş pozuntuya uyğun olaraq ona xəbərdarlıq etmək, zərurət yarandıqda tələbənin imtahan otağından çıxarılması üçün baş nəzarətçiyə müraciət etmək və imtahan komissiyasının sədrini dərhal məlumatlandırmaq.

5.9. İmtahanın keçirilməsi üçün nəzərdə tutulmuş proqram təminatında problem yarandıqda, fövqəladə hallarda, texniki səbəbdən imtahanın davam etdirilməsi mümkün olmadıqda və ya imtahanın keçirilməsinə mane olan hallar zamanı imtahan komissiyası sədrini dərhal məlumatlandıraraq, onu imtahan otağına dəvət etmək.

5.10. İmtahan komissiyası tərəfindən imtahan keçirilən otaqda "İmtahanın təşkili və keçirilməsi qaydaları"na uyğun olmayan hal aşkarlanarsa, nəzarətçi və baş nəzarətçiyə töhmət elan olunacaq.

## 6. İmtahan zamanı tələbələrin hüquqları

6.1. İmtahan zamanı qayda pozuntusu ilə rastlaşdıqda dərhal imtahan nəzarətçisinə müraciət etmək, nəzarətçi tərəfindən zəruri tədbirlər görülmədikdə, ADNSU-nun imtahan komissiyasının sədrinin imtahan otağına gəlməsini tələb etmək.

6.2. İmtahan nəzarətçilərinin fəaliyyəti imtahan prosesinin tələblərinə uyğun olmadıqda, bu barədə imtahan komissiyasının sədrini məlumatlandırmaq.

6.3. İmtahan zamanı istifadə etmək üçün imtahan otağına özü ilə şəffaf rəngli, tərkibində alkoqol olmayan su gətirə bilər.

6.4. Bu Qaydaların 6.5 bəndinin tələblərinə riayət etmək şərti ilə imtahan otağını vaxtından əvvəl tərk etmək (belə halda vaxtından əvvəl tərk etmənin nəticələrinə görə tələbə şəxsən məsuliyyət daşıyır).

6.5. Səhhəti ilə bağlı zərurət yarandığı halda, imtahan komissiyası sədrinin icazəsi və imtahan nəzarətçisinin müşayiəti ilə imtahan otağını, 10 dəqiqədən çox olmamaq şərti ilə, qısamüddətli tərk etmək.

6.6. Fövqəladə hallar yarandıqda dərhal ADNSU-nun tədris binasını tərk etmək.

6.7. Bu Qaydaların 9-cu bəndinin tələblərinə riayət etməklə imtahan nəticələrinin yenidən qiymətləndirilməsi üçün müraciət etmək.

## 7. İmtahan zamanı tələbələrin vəzifələri

7.1. İmtahana gəlməzdən öncə "İmtahanların təşkili və keçirilməsi qaydaları" ilə tanış olmalı.

7.2. Yazılı imtahanın başlanma vaxtına ən azı 30 dəqiqə qalmış imtahan keçiriləcək tədris binasının müvafiq mərtəbəsində olmalı, yoxlama məntəqəsini keçdikdən sonra imtahan otağına keçməli.

7.3. İmtahana mobil telefon, iPad, peycer, yaddaş kartı, konspekt, lüğət, elektron lüğət, cədvəl, məlumat kitabçası, qol saatı, smart və elektron saat, boş vərəq və digər yardımçı vasitələr (qızlar – sırğa) gətirməməli.

7.4. İmtahan otağında imtahanın gedişinə mane olacaq hərəkətlər (icazəsiz yerdəyişmə, gəzişmək, durmaq, digər tələbələrlə danışmaq) etməməli.

7.5. Başqa tələbənin imtahan biletinə, yazılı cavabına baxmamalı və ya öz imtahan bileti və yazılı cavabından başqasının istifadə etməsi üçün şərait yaratmamalı.

7.6. Nəzarətçilərə imtahan suallarının cavablandırılmasına kömək etməklə bağlı müraciət etməməli.

7.7. İmtahan bileti və yazılı cavabı nəzarətçiyə təhvil verdikdən sonra imtahan otağını tərk etməli.

7.8. Özü ilə tünd göy rəngli, mürəkkəbi axıtmayan, diyircəkli qələm və tələbə kartını gətirməli, kartın imtahan ərzində masanın üzərində olmasını təmin etməli.

7.9. Tələbə üçün ayrılmış masada əyləşməli.

7.10. Nəzarətçinin imtahan prosesi ilə bağlı təlimatını diqqətlə dinləməli və imtahan boyu ona əməl etməli.

7.11. Nəzarətçinin göstərişindən sonra imtahan suallarına nəzər yetirməli, suallarda çap qüsuru və ya texniki səhv aşkarlanarsa, bu barədə nəzarətçini dərhal məlumatlandırmalı.

7.12. "İmtahan başlandı!" elanı verilən andan suallara cavab vermək üçün ayrılan vaxtdan səmərəli istifadə etməli, sualların cavablandırılmasını mümkün qədər aydın, başa düşülən xətlə icra etməli.

7.13. "İmtahan bitdi!" elanı verilən anda imtahan suallarını cavablandırma prosesini dərhal dayandırmalı və yazılı cavabını imtahan bileti ilə birlikdə nəzarətçiyə təqdim etməli.

7.14. Vaxtından əvvəl imtahan otağını tərk etmək istədikdə, imtahan prosesinə mane olmamalı və digər imtahan iştirakçılarına hörmətlə yanaşmalı.

7.15. 7.3, 7.4, 7.5, 7.6 və 7.7 bəndinə əməl etməyən tələbənin imtahan nəticələri ləğv edilərək imtahan nəticəsi "Çıxarıldı" olaraq qeyd edilir.

7.16. "Çıxarıldı" statusu alan hər bir tələbə həmin fənnin təkrar tədrisinə yalnız çıxarıldığı gündən bir il keçdikdən sonra buraxıla bilər. Fənnin kreditinin 25%-ni ödəməklə imtahana qədər əvvəl topladığı balla imtahan vermə qaydası bir il keçdikdən sonra bu tələbələrə də şamil edilir.

## 8. Sınaq imtahanları (monitorinqlər və aralıq imtahanları)

8.1. Tələbələr imtahan komissiyası tərəfindən təşkil edilmiş və keçirilmiş sınaq imtahanları zamanı bu qaydaların tələblərinə riayət etmək öhdəliyini daşıyırlar.

8.2. Tələbənin sınaq imtahanında iştirakı mütləqdir. Sınaq imtahanlarında iştirak etməyən tələbənin nəticəsi "0" balla qiymətləndirilir.

## 9. Apelyasiya qaydasında şikayət

9.1. Apelyasiya komissiyasının sədri fakültə dekanıdır, üzvləri isə fənnin tədris olunduğu kafedranın müdiri və fənni tədris edən müəllimdir.

9.2. Apelyasiya şikayətinə apelyasiya komissiyasının sədri – fakültə dekanına Unibook vasitəsilə müraciət əsasında, apelyasiya komissiyasında tələbənin iştirakı ilə baxılır.

9.3. Apelyasiya komissiyasının işi kamera (veb) ilə təchiz edilmiş auditoriyada keçirilir.

9.4. Apelyasiya şikayəti komissiyada araşdırılarkən, komissiya üzvləri tərəfindən tələbəyə əlavə sual verilmir, yalnız imtahan suallarına yazılı cavabları yenidən yoxlanılır.

Bu məqsədlə, fakültə dekanı imtahana məsul şəxsin icazəsi ilə yazılı cavabların saxlandığı otaqdan tələbələrin yazılı cavablarını götürməlidir. Zərurət yaranarsa, yazısında buraxdığı səhvlər fənn müəllimi tərəfindən tələbəyə ətraflı izah edilməlidir.

9.5. İmtahan sessiyası zamanı imtahanların sayından asılı olmayaraq, hər bir tələbə ikidən artıq apelyasiya şikayəti verə bilməz.

9.6. İmtahan sessiyası zamanı verilmiş hər iki apelyasiya şikayətini uduzan tələbə növbəti imtahan sessiyasında apelyasiya şikayəti vermək hüququndan məhrum edilir.

9.7. Semestr ərzində topladığı baldan asılı olmayaraq, imtahanda 11 baldan aşağı bal toplamış tələbə apelyasiya şikayəti verə bilməz

9.8. Apelyasiya şikayəti qiymət elan edildiyi vaxtdan 24 saat müddətində verilməlidir. Müddət bitdikdən sonra apelyasiya şikayəti qəbul edilmir.

9.9. Apelyasiya komissiyasının qərarı qətidir və dəyişdirilə bilməz.

## 10. Nəzərdə tutulmayan öhdəliklər

10.1. İmtahanda tələbəyə verilmiş imatahan bileti və möhürlü vərəqlər ADNSU-nun mülkiyyəti hesab edilir və yalnız qanunla bu hüququn məhdudlaşdırılmasına yol verilir.

10.2. Bu qaydalarda nəzərdə tutulmayan xətalara yol vermiş tələbəyə qarşı ADNSU-nun daxili intizam qaydaları ilə müəyyən edilmiş intizam tənbehi tətbiq edilir.